Qarabağın Rəngləri

Qarabağ Dirçəliş Fondu

AZƏRBAYCAN RESPUBLİKASI MƏDƏNİYYƏT NAZİRLİYİ

# QARABAĞIN RƏNGLƏRİ

“Qarabağın Rəngləri: Faciədən Zəfərə”
Təsviri sənət əsərlərinin kataloqu
2026

# Mündəricat


Ön söz — 05


## Rəngkarlıq əsərləri


Qarabağın rəmzi — 08
İnamın işığı — 11
Yeni üfüqlər — 12
Xan qızı — 14
Faciədən Zəfərə — 16
Kəlbəcər nəfəsi — 19
Aynalı göl — 20
Çələbi — 22
Miras — 25
Ümid pəncərəsi — 26
Naxış — 29
Zəfər yolu — 30
Zirvə — 32
Zeitgeist — 35
Coşqu — 36
İmarət — 39
Həkəri sahilində — 40
Səda — 43
Çay süfrəsi — 44
Payız süfrəsi — 46
Superum — 49
Görüş yeri — 50
Cəbrayıl üfüqü — 53
Starless Night — 54


## Heykəltəraşlıq əsərləri


Sülhün qanadları — 58
Salnamə — 61
Yurd — 62
Zəfər yürüşü — 65
Qarabağ nəvası — 66


## Əsərlərin müəllifləri


Əsərlərin müəllifləri — 70


## Mentorlar


Natiq Əliyev — 74
Səlhab Məmmədov — 75
İnqa Şmidt — 76


## Təşkilatçılar və tərəfdaşlar


Təşkilatçılar — 80
Tərəfdaşlar — 81

# Ön söz

Əziz dostlar!

Qarabağ Dirçəliş Fondu, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Azərbaycan Rəssamlıq Akademiyasının növbəti birgə layihəsi olan “Qarabağın Rəngləri: Faciədən Zəfərə” adlı layihənin kataloqunu böyük məmnunluq hissi ilə diqqətinizə təqdim edirik.

İlk dəfə 2024-cü ildə reallaşdırılan təşəbbüsün məntiqi davamı olan bu layihə “Qarabağın Rəngləri: Faciədən Zəfərə” adlanaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Qarabağda aparılan genişmiqyaslı bərpa-quruculuq prosesini, eləcə də bölgənin keçdiyi tarixi yolu — işğalın ağrı və acılarından Zəfərin qüruruna qədər uzanan mürəkkəb və şərəfli mərhələni sənətin dili ilə əks etdirir.

Layihə çərçivəsində Azərbaycan Rəssamlıq Akademiyasının və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin 26 gənc rəssam və heykəltəraşı tərəfindən hazırlanmış 29 sənət əsəri Qarabağın təbiətini, tarixi yaddaşını və dirçəliş ruhunu müxtəlif bədii yanaşmalarla təqdim edir. Bu əsərlər azad edilmiş torpaqların yenidən həyata qovuşmasını, milli ruhun sarsılmazlığını və gələcəyə olan inamı özündə əks etdirərək keçmişlə gələcək arasında bir körpü yaradır.

“Qarabağın Rəngləri: Faciədən Zəfərə” layihəsi yalnız estetik baxış deyil, həm də tarixi yaddaşın incəsənət vasitəsilə ifadəsidir. Burada müəlliflər faciəni sadəcə xatırlatmır, eyni zamanda dirçəlişin, yenidənqurmanın və milli ruhun gücünü bədii dillə təqdim edirlər.

Bu layihənin həyata keçirilməsi prosesində gənc müəlliflərə diqqət və həssaslıqla yanaşan, öz zəngin təcrübə və biliklərini səxavətlə bölüşən dəyərli mentorların — Xalq rəssamları Natiq Əliyev, Səlhab Məmmədov və dünya şöhrətli almaniyalı rəssam İnqa Şmidtin rolu xüsusi qeyd olunmalıdır.



Onların müdrik tövsiyələri, peşəkar istiqamətləndirməsi və mənəvi dəstəyi gənc sənətkarların yaradıcılıq potensialının üzə çıxarılmasında mühüm əhəmiyyət kəsb edib.

Eyni zamanda bu təşəbbüsün gerçəkləşməsində fəal iştirak edən Qarabağ Dirçəliş Fondunun layihə komandasına və Azərbaycan Rəssamlıq Akademiyasının müəllim heyətinə dərin minnətdarlığımızı bildiririk.

Bununla yanaşı, gənc rəssamların fəaliyyətini stimullaşdırmaq məqsədilə onların hər birinə xüsusi təqaüd ayırmaqla layihəyə göstərdiyi dəstəyə görə PAŞA Kapital İnvestisiya Şirkətinə xüsusi təşəkkürümüzü ifadə edirik.

İnanırıq ki, təqdim olunan işlər hər birinizdə dərin təəssürat yaradacaq, Qarabağın Azərbaycan xalqı üçün daşıdığı tarixi, mədəni və mənəvi əhəmiyyəti bir daha hiss etdirəcək.

**Rəhman Hacıyev**

Qarabağ Dirçəliş Fondunun
İdarə Heyətinin sədri

# RANGKARLIQ ASARLARI

# Qarabağın ramzi

Ülviyyə Xeyrullazada

Material
**Kətan, yağlı boya**

Janr / Üslub
**Kompozisiya, impressionizm**

Ölkə / İl
**Azərbaycan, 2025**

Ölçü
**100x80 sm**

DAHA ƏTRAFLI




Kətan üzərində yağlı boya ilə işlənmiş bu əsərdə Azərbaycanın milli qüruru olan Qarabağ atları yaşıllıqlara qərq olmuş yaylaqlar fonunda təsvir olunub.

Rəssam atların güclü bədən quruluşunu və parlaq dərisini incə detallarla işləyib, üzərlərindəki rəngarəng, xalça naxışlı yəhərlər isə kompozisiyaya milli ruh qatır. Arxa plandakı dumanlı dağ silsilələrinin soyuq mavi tonları ilə ön plandakı atların isti qəhvəyi çalarları arasında yaradılan kontrast məkana dərinlik verir.

Bu əsər Qarabağın qədim atçılıq ənənələrini, xalqın köklərinə bağlılığını və bu torpaqlarda yenidən dirçələn milli irsi ifadə edir.



# İnamın işığı

Sevinc Əhmədova



DAHA ƏTRAFLI

| Material | Janr / Üslub |
|---|---|
| **Kətan, yağlı boya** | **Mənzərə, impressionizm** |
| Ölkə / İl | Ölçü |
| **Azərbaycan, 2025** | **90x60 sm** |

Zəngilan məscidinin zərif silueti bu əsərdə günəşin qızılı şəfəqləri ilə elə bir vəhdət yaradır ki, abidə sanki əsrlərin yaddaşını özündə daşıyan sarsılmaz bir sütun kimi göylərə ucalır.

Mavi və firuzəyi çalarların hakim olduğu rəng palitrası memarlıq detallarının zərifliyini vurğulayaraq, baxanları sonsuz bir sükut və mənəvi hüzur mühitinə dəvət edir.

Müəllif, sərbəst fırça zərbələri və incə işıq oyunları vasitəsilə abidəni sadəcə bir tikili kimi deyil, keçmişin xatirələrindən süzülüb gələn və sabaha boylanan bir ruhun oyanışı kimi təqdim edir. Məscidin əzəmətli duruşu torpağın öz kökləri üzərində yenidən və daha güclü yüksəlməsinin bədii təsdiqidir.

Bu tablo inamın qaranlıqlar üzərindəki qələbəsinin və yenidən doğulan ümidin vizual tərənnümüdür.



# Yeni üfüqlər

Azarin Piraliyeva

DAHA ƏTRAFLI

| Material | Janr / Üslub |
|---|---|
| **Kətan, yağlı boya** | **Mənzərə, postimpressionizm** |
| Ölkə / İl | Ölçü |
| **Azərbaycan, 2025** | **120x50 sm** |

Geniş panoramlı kətan üzərində yağlı boya ilə işlənmiş bu əsər Qarabağın müasir inkişaf mərhələsini quruculuq və yenilənmə ideyası üzərindən təqdim edir.

Ön plandakı tünd torpaq çalarları möhkəm təməl və tarixi yaddaşı simvolizə edərkən, arxa planda açılan mavi və ağ tonlar yüksəlişi, işığı və şəhər məkanının dinamik transformasiyasını ifadə edir.

Kompozisiyada ritmik yüksəliş xətləri və struktur formalar hərəkət və inkişaf enerjisi yaradır, fakturalı fırça zərbələri isə genişmiqyaslı dəyişimin tempini hiss etdirir.

Əsər infrastrukturun bərpasını və həyatın yeni mərhələyə keçidini simvolizə etməklə yanaşı, regionun gələcəyinə inamı lakonik, lakin təsirli vizual dillə ifadə edir.



# Xan qızı

Sevinc Əhmədova

Material
**Kətan, yağlı boya**

Janr / Üslub
**Portret, realizm**

Ölkə / İl
**Azərbaycan, 2026**

Ölçü
**60x80 sm**

DAHA ƏTRAFLI



Əsərdə ənənəvi Qarabağ libasında təsvir olunan gənc qadın çay piyaləsini dodaqlarına yaxınlaşdıraraq baxışlarını sakit bir təmkinlə aşağı dikib. Onun qızılı duvaqla tamamlanan nəfis baş geyimi və iri sırğaları geyimindəki isti qırmızı və qızılı çalarları ön plana çıxarır. Gümüş çaydan və sinidən ibarət çay süfrəsi milli qonaqpərvərlik ənənəsinin incəliyini əks etdirir. Obrazın arxa fonunda isə Qarabağ xalçaçılıq məktəbinə məxsus üç unikal göl motivi şaquli şəkildə sıralanır.

Bu naxışlar və qonaqpərvərlik rəmzləri eyni mədəniyyətin iki fərqli ifadəsi kimi təqdim olunur. Əsərin adı olan “Xan qızı” portretə xüsusi bir məna qataraq, qəhrəmanı əsilzadə bir nəslin nümayəndəsi kimi xarakterizə edir. Rəsm onun simasında Qarabağın nəsillər boyu yaşatdığı naxışları və ənənələri vüqarlı, zadəgan bir obraz vasitəsilə canlandırır.

# Faciadan Zafara

Masuma Salimli

DAHA ƏTRAFLI

Material
**Kətan, yağlı boya**

Janr / Üslub
**Kompozisiya, postimpressionizm**

Ölkə / İl
**Azərbaycan, 2025**

Ölçü
**100x65 sm**

Əsərdə ön planda dağıdılmış daş divarlar qalın, sərt fırça vuruşları ilə təsvir olunur. Sarı-oker və boz tonlar faciənin izlərini daşıyır.

Arxa planda isə mavi-yaşıl çalarlarla qurulan müasir Ağdamın silueti və tikinti kranları diqqəti cəlb edir. Kompozisiyada əks olunan təzad — xarabalıq və inşa zamanın dramatik keçidindən xəbər verir.

Daşların parçalanmış forması itirilmiş illərin ağrısını xatırlatsa da, yüksələn binalar və hərəkətdə olan kranlar qətiyyət və iradəni simvolizə edir. Bu qarşıdurma ümidsizlikdən doğan gücü ön plana çıxarır.

Əsər Qarabağda, xüsusilə Ağdamda, faciədən zəfərə uzanan yolun bədii salnaməsidir — dağıntıdan dirçəlişə, sükutdan həyata doğru Böyük Qayıdışın rəmzidir.







# Kəlbəcər nəfəsi

Turan İsmayılova

DAHA ƏTRAFLI

| Material | Janr / Üslub |
|---|---|
| **Kətan, yağlı boya** | **Mənzərə, impressionizm** |
| Ölkə / İl | Ölçü |
| **Azərbaycan, 2025** | **100x60 sm** |

Geniş fırça hərəkətləri ilə işlənmiş yaşıl yamaclar sarı və oker işıq ləkələri ilə canlandırılır, vadinin dərinliyinə doğru axan mavi çay kompozisiyanın əsas xəttini qurur.

Dolğun boya qatları və zəngin faktura Kəlbəcər dağlarının sərt relyefini bütün kəskinliyi ilə üzə çıxarır, yuxarıdakı açıq səma isə rənglərin bu sıxlığına genişlik və şəffaflıq gətirərək kompozisiyanı tarazlayır.

Bu mənzərə yalnız coğrafiya deyil, azadlıq duyğusunun vizual ifadəsidir. Günəşin yamaclara səpələnməsi ümidin torpağa qayıdışını, axan su isə zamanın fasiləsiz yenilənməsini simvolizə edir.

Əsər Kəlbəcərin dirçələn təbiətini və Böyük Qayıdışla yenidən canlanan dağ həyatını — torpaqla insanın yenidən qurulan bağını tərənnüm edir.



# Aynalı göl

Nargiz Əliyeva

DAHA ƏTRAFLI

| Material | Janr / Üslub |
| --- | --- |
| **Kətan, yağlı boya** | **Mənzərə, ekspressionizm** |
| Ölkə / İl | Ölçü |
| **Azərbaycan, 2025** | **100x65 sm** |

Bu tabloda firuzəyi suların dərinliyi ilə ağacların sarsılmaz duruşu vahid bir məkanda qovuşub. Rəssam burada Laçın rayonunun adi bir mənzərəsini deyil, kökləri suyun dərinliklərinə sığınan, sanki birbaşa gölün sükutundan boy verən ağacların hekayəsini nəql edir.

Göl burada sadəcə bir su kütləsi deyil, hər budağın və hər rəngin özünü tamamladığı canlı bir dünyadır. Su bu ağacları bir ana şəfqəti ilə öz qoynunda bəsləyir, onları həm yaşadır, həm də durğun səthində əbədiləşdirir.

Şaquli fırça vuruşları suyun dərinliyi ilə göyün sonsuzluğunu elə bir zərifliklə birləşdirir ki, ağaclar iki dünya arasında dayanan canlı sütunlara çevrilir.

Göy üzünün saflığı suyun aynasına elə ustalıqla həkk olunub ki, reallıqla onun sudakı əksi bir-birində əriyərək bütöv bir möcüzə yaradır. Bu əsər izləyicini suyun üzərində rəqs edən o sonsuz sükutu dinləməyə və təbiətin bu səssiz, amma möhtəşəm birliyinin bir parçası olmağa dəvət edir.





# Çalabi

## Yegana Bağırzada

DAHA ƏTRAFLI

| Material | Janr / Üslub |
|---|---|
| **Kətan, yağlı boya** | **Portret, postimpressionizm** |
| Ölkə / İl | Ölçü |
| **Azərbaycan, 2026** | **60x80 sm** |

Əsərdə ənənəvi Qarabağ libası geyinmiş, alnını bəzəyən sikkəli nəfis baş örtüyü ilə təsvir olunan gənc qadın bütün varlığı ilə melodiyanın sehrinə qapılaraq uda köklənib. Onun arxa fonunu unikal naxış strukturu və pilləli gölləri ilə tanınan klassik “Çələbi” qrupuna aid Qarabağ xalçası bəzəyir.

Palitranın hakim rəngləri olan mavi, qızılı və qırmızı tonlar həm xalçanın ilmələrində, həm də qadının zərif libasında əks olunaraq vizual bir dialoq yaradır.

Rəssamın dinamik, cürətli və isti fırça vuruşları obrazı fondan ayırmır, əksinə, onu xalçanın ayrılmaz bir parçası və naxışların canlı davamı kimi təqdim edir.

Qucağında tutduğu ud sanki səssiz bir melodiyanın varlığını pıçıldayır. Bu vizual kompozisiyada Qarabağ musiqisi fonu bəzəyən xalça ornamentləri ilə qovuşaraq gözəl bir harmoniya yaradır.







# Miras

Aydan Mammədli

DAHA ƏTRAFLI

| Material | Janr / Üslub |
|---|---|
| **Kətan, yağlı boya** | **Mənzərə, realizm** |
| Ölkə / İl | Ölçü |
| **Azərbaycan, 2025** | **110x80 sm** |

Bu əsər sadəcə bərpa olunan Aşağı Gövhər Ağa məscidinin təsviri deyil, xalqımızın öz tarixi yaddaşına və inancına sahib çıxmaq əzminin bədii manifestidir.

Ön plandakı sükuta dalmış qədim daşlar tarixin sərt sınaqlarını xatırlatsa da, arxa planda səmaya boylanan qoşa minarələr bu torpağın əzəli və əbədi sahiblərinin sarsılmaz iradəsini simvolizə edir.

Rəssamın fırçasından süzülən işıq, dağıntıların arasından boy verən dirçəlişi və "biz buradayıq, öz mirasımızın keşikçisiyik" mesajını verir.

Bu əsər keçmişdən gələcəyə uzanan mənəvi körpü və Qarabağ torpağına vurulmuş əbədi möhürdür.



# Ümid pancarasi

DAHA ƏTRAFLI

## Aydan Qurbanova

| Material | Janr / Üslub |
|---|---|
| **Kətan, yağlı boya** | **Mənzərə, impressionizm** |
| Ölkə / İl | Ölçü |
| **Azərbaycan, 2025** | **90x70 sm** |

Kətan üzərində yağlı boya ilə işlənmiş bu kompozisiya, izləyicini Şuşada yerləşən Realnı məktəbinin köhnə, uçuq-sökük bir divarın pəncərəsindən gözəl bir mənzərəyə baxmağa dəvət edir.

Rəssam divarın kələ-kötür fakturasını tünd torpaq rəngləri ilə təsvir edərək keçmişin ağırlığını vurğulayıb, lakin pəncərədən görünən mənzərədə parlaq yaşıl ağaclar, yeni bərpa olunmuş evlər və sonsuz mavi səma üstünlük təşkil edir.

İşıq mərkəzdən sanki otağın daxilinə süzülərək qaranlığı geridə qoyur.

Pəncərə sadəcə memarlıq detalı deyil, gələcəyə açılan bir qapı, Qarabağın yenidən doğan mənzərələrinə baxan ümid nöqtəsidir. Əsər dağıntıların arasından boylanan yeni həyat və bərpa prosesini simvolizə edir.









# Naxış

Leylahon Nurmetova

Material
**Kətan, yağlı boya**

Janr / Üslub
**Kompozisiya, realizm**

Ölkə / İl
**Azərbaycan, 2025**

Ölçü
**90x90 sm**

DAHA ƏTRAFLI

Bu əsər Şərq xalçaçılığının mühüm mərkəzlərindən biri olan Qarabağ məktəbinin bədii ənənələrini və zəngin toxuculuq mədəniyyətini əks etdirir. Tabloda təsvir olunan al-qırmızı fon Qarabağ xalçalarına xas olan rəng intensivliyini və klassik çeşnilərin canlılığını vizuallaşdırır.

Rəssam xalçanın üzərindəki naxışların sıxlığı və göllərin nizamlı düzülüşü vasitəsilə bu sənətin yüksək bədii dəyərini və kompozisiya mükəmməlliyini nümayiş etdirir.

Xalça toxuyan qadın obrazı burada həm bir sənətkar, həm də çoxəsrlik bir salnamənin qoruyucusudur.

Onun hər bir ilməsi Qarabağ xalçalarının hələ orta əsrlərdən Avropa intibah rəssamlarının tablolarına qədər uzanan şöhrətli tarixini və "Kitabi-Dədə Qorqud" dastanından bəri gələn toxuculuq irsini simvolizə edir.

# Zəfər yolu

Ləman Qasımova

| | |
|---|---|
| Material<br>**Kətan, yağlı boya** | Janr / Üslub<br>**Mənzərə, postimpressionizm** |
| Ölkə / İl<br>**Azərbaycan, 2025** | Ölçü<br>**120x95 sm** |

DAHA ƏTRAFLI



Bu əsər sadəcə bir coğrafi marşrutu deyil, xalqımızın 30 illik həsrətdən vüsala gedən müqəddəs yolçuluğunu tərənnüm edir. Kətan üzərində canlanan bu mənzərə sıldırım qayaları və sərt təbiəti yararaq irəliləyən sarsılmaz bir iradənin vizual hekayəsidir.

Ön plandakı ağacın qızılı-payız çalarları Zəfər fəslini – o möhtəşəm tarixi simvolizə edərkən, arxa plandakı yaşıl dağlar Vətən torpağının əbədi canlılığını vurğulayır.

Dağların qoynundan süzülüb gedən bu dolanbac yol zülmətdən işığa, keçmişdən gələcəyə açılan bir qapı kimi təsvir olunub.

Rəssam bu tabloda təbiətin sükutunu pozan "qayıdışın ayaq səslərini" və bu torpaqların əsl sahiblərinin əzmini rənglərin dili ilə əbədiləşdirib.



# Zirva

Leyla Adıgözəlova


DAHA ƏTRAFLI

Material
**Kətan, yağlı boya**

Janr / Üslub
**Mənzərə, impressionizm**

Ölkə / İl
**Azərbaycan, 2025**

Ölçü
**100x70 sm**

Bu tablo yerlə göyün, tarixlə əbədiyyətin qovuşduğu o müqəddəs nöqtəni tərənnüm edir. Rəssamın fırçasından süzülən sıldırım qayalar və dumanlı üfüqlər sadəcə təbiətin əzəmətini deyil, insan iradəsinin sərhədsizliyini simvolizə edir.

Bu mənzərə qəhrəmanlarımızın ən sərt maneələri yararaq, mümkünsüzü mümkün edən bir əzmlə Vətən zirvəsinə ucaldıqları o tarixi məqamdır.

Tabloda təsvir olunan bu uca nöqtə iki böyük həqiqətin vəhdətidir: biri Vətənimizin tacı olan Şuşa zirvəsi, digəri isə oğullarımızın ucaldıqları Şəhidlik zirvəsidir.

Onlar bu sıldırımları aşarkən təkcə fiziki bir yüksəkliyi fəth etmədilər, həm də öz adlarını əbədiyyətə həkk etdilər. Əsər izləyicini sükuta dəvət edir – o sükut ki, orada yalnız zirvələrin vüqarı və ölümsüz ruhların pıçıltısı eşidilir.







# Zeitgeist

Humay Sultanova

DAHA ƏTRAFLI

| Material | Janr / Üslub |
| --- | --- |
| **Kətan, yağlı boya** | **Mənzərə, impressionizm** |
| Ölkə / İl | Ölçü |
| **Azərbaycan, 2025** | **90x65 sm** |

Kətan üzərində yağlı boya ilə işlənmiş bu əsər Şuşanın memarlıq incisi olan Saatlı məscidini parlaq və ruhlandırıcı rənglərlə təqdim edir. Rəssam minarənin mürəkkəb həndəsi naxışlarını incəliklə işləyərək, Qarabağ memarlıq məktəbinin unikallığını vurğulayıb.

Ön plandakı bərpa prosesini göstərən detallar və təmiz mavi səma məkanın mənəvi atmosferini canlandırır. İşıq və kölgə oyunları məscidin həm tarixi, həm də yaşayan mədəniyyət ocağı olduğunu vurğulayır.

Bu tablo şəhərin mədəni kimliyinin bərpasını və Saatlı məscidinin timsalında Qarabağın sarsılmaz ruhunun yenidən dirçəlməsini tərənnüm edir.

Əsərin "Zeitgeist" (Alman dilində "Zamanın ruhu") adlandırılması onun fəlsəfi yükünü müəyyən edir.

Rəssam burada Saatlı məscidini sadəcə memarlıq abidəsi kimi deyil, Qarabağın bugünkü bərpa və intibah dövrünün vizual təcəssümü kimi təqdim edərək, dövrün mənəvi mahiyyətini kətana köçürüb.



# Coşqu

Emiliya İsmayıllı

DAHA ƏTRAFLI

| Material | Janr / Üslub |
|---|---|
| **Kətan, yağlı boya** | **Kompozisiya, ekspressionizm** |
| Ölkə / İl | Ölçü |
| **Azərbaycan, 2025** | **100x70 sm** |

Kətan üzərində yağlı boya ilə işlənmiş bu əsər rəng, hərəkət və musiqi enerjisinin vəhdətində Qarabağın ruhunu canlandırır. Güclü və sərbəst fırça zərbələri kompozisiyaya dinamika qatır, qırmızı və mavi rənglərin qarşılıqlı axını isə emosional yüksəliş hissi yaradır.

Səhnədə təsvir olunan fiqurlar milli rəqsin plastikasını və daxili ritmini əks etdirir. Musiqi alətlərinin varlığı isə kompozisiyaya eşidilən bir ahəng təsiri bağışlayır. Rəssam abstrakt ifadə ilə realist detalları birləşdirərək həm vizual, həm də hiss olunan bir hərəkət məkanı qurur.

Qırmızının alovlu tonu zəfər, ehtiras və həyat enerjisini ifadə etdiyi halda, mavi çalarlar mənəvi dərinliyi və yenilənmə ruhunu simvolizə edir.

“Coşqu” yalnız bir anın təsviri deyil — Qarabağda yenidən canlanan sənət ənənələrinin, milli mədəniyyətin və sarsılmaz həyat eşqinin vizual təcəssümüdür.









# İmarat

Raşadə Əliyeva

Material
**Kətan, yağlı boya**

Janr / Üslub
**Mənzərə, realizm**

Ölkə / İl
**Azərbaycan, 2025**

Ölçü
**100x70 sm**

DAHA ƏTRAFLI

Bu tabloda Qarabağ xanlığının bünövrəsinin qoyulduğu tarixi iqamətgahın əzəməti canlandırılıb. Rəssam kətan üzərində uca divarların və tağvari girişlərin monumentallığını ön plana çıxararaq, məkanda hökm sürən ab-havanı və güclü duruşu vurğulayıb.

Günəş işığının qızılı tonları ilə qədim daş hörgü qatlarının üzərinə düşən tünd kölgələrin təzadı tikilinin hər bir küncünə dərinlik və vizual bir cazibə bəxş edir.

Əsər işıq və rəng keçidləri ilə daşların qədim yaddaşını elə ustalıqla canlandırır ki, izləyici dövlətçilik tariximizə və nəcib bir nəslin irsinə şahidlik edən canlı bir atmosferin içində özünü hiss edir.

Əsər Qarabağda yenidən dirçələn həyatın rəmzi — Böyük Qayıdışın müjdəçisidir.



# Hakari sahilində

Nigar Musayeva

DAHA ƏTRAFLI

Material
**Kətan, yağlı boya**

Janr / Üslub
**Mənzərə, realizm**

Ölkə / İl
**Azərbaycan, 2025**

Ölçü
**100x80 sm**

Kətan üzərində yağlı boya ilə işlənmiş bu əsər Qarabağın dağ çaylarından birinin coşqun axarını realizm üslubunda əks etdirir.

Rəssam suyun köpüklənən dalğalarını ağ və açıq mavi çalarlarla, sahildəki daşları isə boz və qəhvəyi tonlarla aydın şəkildə təsvir edib. Çayın kənarındakı yaşıl ağaclar və arxa plandakı uca dağ silsiləsi məkana sükunət və əzəmət qatır, aydın mavi səma isə ümumi kompozisiyaya parlaqlıq bəxş edir.

Bu tablo təbiətin gücünü, suyun Qarabağ torpağına bəxş etdiyi həyat, bolluq və bərəkəti simvolizə edir.







# Sada

Banuçiçək Əhmədzadə

DAHA ƏTRAFLI

Material
**Kətan, yağlı boya**

Janr / Üslub
**Portret, ekspressionizm**

Ölkə / İl
**Azərbaycan, 2026**

Ölçü
**60x80 sm**

Əsərdə gənc qadının başını söykədiyi dəfə qısılması və onu zərifcə qavrayan əlləri bütün kompozisiyaya hakim olan isti qızılı rənglərlə təsvir edilib. Geyiminin qolu boyunca uzanan milli buta naxışları kəhrəba rəngli fonla vizual bir harmoniya yaradır.

Demək olar ki, yalnız qızılı və oxra tonları ilə işlənmiş bu əsər portretdən daha çox sədanın özünün təcəssümü kimi qəbul edilir. Qarabağın muğam sənətində dəfin daşıdığı o ritmik nəfəs rəsmdə fərqli bir məna qazanır.

Burada ifaçı tamaşaçı üçün çıxış etmir, əksinə, sakit bir tənhalıq içində musiqi ilə qovuşaraq sanki alətin daxilində hələ də əks-səda verən gizli bir notu dinləyir.

# Çay süfrəsi

DAHA ƏTRAFLI

**Nəzrin Zeynalabdinzadə**

Material
**Kətan, yağlı boya**

Janr / Üslub
**Kompozisiya, realizm**

Ölkə / İl
**Azərbaycan, 2025**

Ölçü
**96x60 sm**

Bu kompozisiyada Cıdır düzünün əsrarəngiz mənzərəsi fonunda bir araya gələn dörd nəfərin süfrə arxasındakı səmimi söhbəti və doğma mühit canlandırılıb.

Rəssam soyuq mavi və boz tonlarla məkanda harmoniyanı yaradıb, süfrədəki ənənəvi armudu stəkanlardakı çay isə kompozisiyanın mərkəzi rəng aksentidir.

Dinamik fırça zərbələri və fiqurların üz ifadələri torpağa bağlılığı, keçmişi yad etməyi və gələcək planları əks etdirir.

Bu əsər sadə insan həyatının və uzun illərdən sonra doğma yurdda yenidən qurulan isti ailə və dostluq bağlarının, həmçinin mənəvi irsin və insani dəyərlərin dirçəlişini simvolizə edir.





# Payız süfrasi

Nargiz Əliyeva

DAHA ƏTRAFLI

Material
**Kətan, yağlı boya**

Janr / Üslub
**Natürmort, postimpressionizm**

Ölkə / İl
**Azərbaycan, 2026**

Ölçü
**60x80 sm**

“Payız süfrəsi” əsəri Azərbaycan mədəniyyətində bolluq və bərəkət rəmzi olan nar və heyva meyvələrinin təsvirinə həsr edilib.

Kompozisiyada bu meyvələr fərqli iki müstəvidə — həm dayaz bir qabın içində, həm də ornamentli haşiyəsi ilə seçilən Qarabağ xalçasının üzərində təsvir olunub.

Onlardan bəzilərinin bölünmüş şəkildə təsvir edilməsi rəsmə xüsusi bir canlılıq qatır. Qalın fırça vuruşları ilə işlənmiş isti qırmızı və oxra tonları isə əsərə vizual bir dolğunluq bəxş edir.

Rəssam sadə bir məişət səhnəsi və milli kimliyimizin qədim salnaməsi olan xalça sənəti vasitəsilə torpağın bəhrəsini və nəsillərdən bəri yaşadılan xalçaçılıq ənənəsini vahid bir harmoniya daxilində təqdim edir.







# Superum

Sevinc Gəncəliyeva

DAHA ƏTRAFLI

Material
**Kətan, yağlı boya**

Janr / Üslub
**Mənzərə, impressionizm**

Ölkə / İl
**Azərbaycan, 2025**

Ölçü
**100x90 sm**

Bu tabloda təsvir olunan Yuxarı Gövhər Ağa məscidi sadəcə tarixi bir memarlıq abidəsi deyil, Şuşanın sarsılmaz yaddaşının və mənəvi gücünün rəmzidir. Rəssam bizi illərin sükutundan sonra günəş şüaları ilə yenidən salamlaşan, ruhu dincəlmiş bir oyanışa şahidlik etməyə dəvət edir.

Səmaya boylanan qoşa minarələr yerlə göy arasında qurulmuş əbədi bir dialoq kimidir. İmpressionist üslubda işlənmiş isti oker çalarları məscidin qədim daş divarlarını canlandıraraq onlara yeni bir nəfəs, yeni bir həyat bəxş edir.

Əsərin "Superum" (Latın dilində "Yuxarı") adlandırılması həm abidənin adındakı coğrafi məqama, həm də onun böyük sınaqlardan keçərək qoruyub saxladığı mənəvi ucalığına zərif bir işarədir.

Bu kompozisiya Qarabağın mədəni irsinin sadəcə bərpası deyil, onun öz kökləri üzərində daha əzəmətli şəkildə yenidən ucalması və tarixə qayıdışıdır.



# Görüş yeri

Banuçiçək Əhmədzadə

DAHA ƏTRAFLI

Material
**Kətan, yağlı boya**

Janr / Üslub
**Mənzərə, postimpressionizm**

Ölkə / İl
**Azərbaycan, 2025**

Ölçü
**100x80 sm**

Bu tablo Şuşa qalasının divarlarını sadəcə bir müdafiə istehkamı kimi deyil, şəhər sakinlərinin yollarının kəsişdiyi canlı bir ünvan, ünsiyyət nöqtəsi kimi təqdim edir.

"Görüş yeri" adı altında birləşən bu mənzərə, daşların şahidlik etdiyi saysız-hesabsız söhbətləri, salamlaşmaları və şəhər həyatının qaynar ritmini simvolizə edir.

İşıq və rənglərin ahəngi divarların sərtliyini yumşaldaraq, izləyicidə sanki indicə oradan keçən insanların ayaq səslərini və səmimi söhbətlərini eşidəcəkmiş kimi bir hiss yaradır.

Tablo qalanın əbədi sükutu ilə həyatın davamlı axarı arasındakı harmoniyanı simvolizə edir.







# Cabrayıl üfüqü

Pakiza Rzayeva

DAHA ƏTRAFLI

Material
**Kətan, yağlı boya**

Janr / Üslub
**Mənzərə, postimpressionizm**

Ölkə / İl
**Azərbaycan, 2025**

Ölçü
**100x70 sm**

Kətanda geniş torpaq səthi isti qəhvəyi və oker tonlarla işlənmiş, üfüq xətti boyunca uzanan yaşıl zolaq isə səmanı torpaqla birləşdirir. Açıq mavi fonda yumşaq bulud kütlələri incə fırça vuruşları ilə verilərək kompozisiyaya sakit nəfəs qatır.

Rəng keçidləri sərt deyil, axıcıdır — səthin sakitliyi zamanın dayanmış anını xatırladır.

Bu boşluq tərk edilmişlik deyil, gözləmə halıdır. Üfüqdəki yaşıl xətt torpağın yenidən canlanacağına işarə edir, buludların yüngüllüyü isə ümidin ağırlıqdan azad olmasını simvolizə edir.

Əsər Cəbrayılın yenidən həyatla dolacaq düzənlərini və Böyük Qayıdışla bərpa olunan yurd yaddaşını poetik şəkildə ifadə edir.



# Starless Night

Afaq Əliyeva

DAHA ƏTRAFLI

Material
**Karton, yağlı boya**

Janr / Üslub
**Mənzərə, impressionizm**

Ölkə / İl
**Azərbaycan, 2025**

Ölçü
**70x90 sm**

Karton üzərində işlənmiş bu mənzərə əsərində Qarabağın dağlıq təbiəti təsvir olunub. Ön planda sərt qayalar, arxa fonda isə mavi və bənövşəyi çalarlara bürünmüş dağ silsilələri yer alır.

Rəssam sərbəst fırça vuruşları ilə mənzərənin dərinliyini və əzəmətini ifadə edib. Soyuq rəng palitrası qayaların üzərindəki yaşıl və sarı tonlarla tarazlanır. Dumanlı üfüq və işıq keçidləri əsərə sakit, lakin təsirli bir ovqat bəxş edir.

Məhz bu vizual ahəng sayəsində “Starless Night” (İngilis dilində “Ulduzsuz gecə”) əsəri Qarabağın təbii gözəlliyini və dağ mənzərələrinin möhtəşəmliyini əks etdirir.

Dağların əzəməti və təbiətin toxunulmazlığı kompozisiyanın əsas təsir gücünü formalaşdırır.



# HEYKƏLTƏRAŞLIQ ƏSƏRLƏRİ



# Sülhün qanadları

Kəmalə Əsgərova

DAHA ƏTRAFLI

Material
**Bürünc**

Janr / Üslub
**Dəzgah heykəltəraşlığı, realizm**

Ölkə / İl
**Azərbaycan, 2025**

Ölçü
**55x30x20 sm**

Bürünc materialın isti qızılı tonları fiqurun üzərində yumşaq işıq oyunları yaradır, uzanan qol və havaya qalxan quşlar kompozisiyanı yuxarı istiqamətdə hərəkətə gətirir.

Zərif cizgilərlə işlənmiş fiqur dinamika və yüngüllük hissi aşılayır, sanki yerin cazibəsindən qoparaq səma ilə vəhdət təşkil edir.

Bu jest yalnız azadlıq deyil — gələcəyə uzanan inamdır.

Quşlar dirçəlişin və açılan üfüqlərin rəmzinə çevrilir.

Əsər Qarabağın yenidən həyatla dolmasını və Böyük Qayıdışın sevinc dolu yüksəlişini poetik və ümidverici dillə ifadə edir.







# Salnama

Rəşad Bahadurlu

DAHA ƏTRAFLI

Material
**Bürünc**

Janr / Üslub
**Dəzgah heykəltəraşlığı, simvolizm**

Ölkə / İl
**Azərbaycan, 2025**

Ölçü
**50x30x10 sm**

Heykəldə tünd bürünc materialın relyefvari toxunuşları Qarabağın qədim qalalarının, uca məscidlərinin və möhtəşəm memarlıq abidələrinin detallarını qabardaraq çoxqatlı bir mənzərə yaradır.

Pilləli quruluş və şaquli yüksələn formalar işığın səthdə yaratdığı zərif kölgələrlə birləşərək, regionun zəngin və bənzərsiz simasını formalaşdırır. Hər bir memarlıq elementi tarixin dərinliklərindən gələn bir yazı, bürünc material isə bu Salnaməni əbədiləşdirən sarsılmaz bir vasitədir.

Qala divarları və qədim tikililər sanki qayalıqdan doğaraq təbiətlə mədəniyyətin harmoniyasını, bu torpaqların köklü keçmişini xatırladır.

Bu obraz sadəcə bir ərazi təsviri deyil, mənəvi bir ucalıq nümunəsidir. Kompozisiya Qarabağın mədəni dirçəlişini və bərpa olunan irsini vəsf edərək, Böyük Qayıdışın mənəvi zirvəsini təcəssüm etdirir.



# Yurd

Aysu Abdulalizada

DAHA ƏTRAFLI

Material
**Bürünc**

Janr / Üslub
**Dəzgah heykəltəraşlığı, simvolizm**

Ölkə / İl
**Azərbaycan, 2025**

Ölçü
**45x30x30 sm**

Heykəl tünd bürünc materialın zərif parıltısı ilə qurulmuş dairəvi kompozisiya üzərində yüksəlir. Yumşaq əyrilər içərisində yerləşdirilən sünbül formaları həyatın ritmini xatırladan vizual harmoniya yaradır.

İşıq səthin üzərində sakit axaraq təbiətin sonsuz dövranını vurğulayır. Bu forma yalnız dekorativ motiv deyil — o, torpağın yenidən məhsuldar olmasının rəmzidir.

Sünbüllər Qarabağın dirçələn kəndlərini və qayıdan həyatını simvollaşdırır.

Əsər Böyük Qayıdışın maddi və mənəvi bərəkətini ifadə edərək müharibədən sonra torpağın yenidən nəfəs almasını poetik dillə təqdim edir.







# Zəfər yürüşü

Zaniyat Mammadova

DAHA ƏTRAFLI

| | |
|---|---|
| Material<br>**Bürünc** | Janr / Üslub<br>**Dəzgah heykəltəraşlığı, realizm** |
| Ölkə / İl<br>**Azərbaycan, 2025** | Ölçü<br>**35x30x8 sm** |

Bürünc səthin isti qızılı-qəhvəyi çalarları heykələ canlı hərəkət hissi verir, işıq atın əzələlərində dalğalanaraq dinamikanı gücləndirir.

Ustalıqla işlənmiş anatomik formalar və qaldırılmış ayaq irəliyə yönəlmiş enerjini, dayanmaz iradəni ifadə edir. Səthdəki patina zamanın keçidini xatırlatsa da, fiqurun duruşu azadlığın yeni başlanğıcını simvolizə edir. Bu at yalnız heyvan obrazı deyil — Qarabağın azad nəfəsidir.

Heykəl dirçəlişin və Böyük Qayıdışın metaforasına çevrilərək torpağa yenidən həyat gətirən gücün, hərəkətin və ümidin rəmzi kimi səslənir.



# Qarabağ navası

Amin Ələsgərli

DAHA ƏTRAFLI

Material
**Bürünc**

Janr / Üslub
**Dəzgah heykəltəraşlığı, realizm**

Ölkə / İl
**Azərbaycan, 2025**

Ölçü
**50x35x10 sm**

Bürünc materialın isti tünd-qızılı çalarları fiqurların üzərində ritmik işıq oyunları yaradır. Heykəltəraşlıqda çoxfiqurlu kompozisiya dinamik plastika ilə qurulmuş, hər bir obraz musiqi alətləri vasitəsilə fərqli istiqamətə yönələn hərəkət ritmini ifadə edir.

Səthin kobud və hamar hissələrinin qarşılaşdırılması sanki səslərin ahəngini vizuallaşdırır.

Bu birlik sadəcə musiqi deyil, həm də xalq yaddaşının qorunması, milli irsin yaşadılmasıdır. Əsər Qarabağın mədəni irsinin, muğamın və kollektiv ruhun yenidən səslənməsini simvollaşdırır.

Beləliklə, kompozisiya Böyük Qayıdışla birlikdə torpağa qayıdan səslərin və həyatın bərpasını poetik dillə ifadə edir.



# Əsərlərin müəllifləri

# MENTORLAR



MENTOR

# Natiq Əliyev

**Xalq rəssamı, professor, Azərbaycan Rəssamlıq Akademiyasının rektoru**

Natiq Kamal oğlu Əliyev 10 avqust 1958-ci ildə Bakı şəhərində anadan olub. 1974-1978-ci illərdə Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbində təhsil alıb və həmin məktəbi fərqlənmə diplomu ilə bitirib. 1978-1983-cü illərdə Rusiyanın Sankt-Peterburq şəhərindəki V. Muxina adına Sankt-Peterburq Ali Rəssamlıq Məktəbində təhsil alıb və həmin məktəbi də fərqlənmə diplomu ilə bitirib. 1980-1983-cü illərdə V. Lenin təqaüdçüsü olub.

2008-ci ildə Rusiya Rəssamlıq Akademiyasının fəxri üzvü seçilib, 2005-ci ildə Azərbaycan Respublikasının Xalq rəssamı fəxri adına layiq görülüb. 2022-ci ilin dekabr ayında MDB ölkələrinin humanitar sahədə ən nüfuzlu mükafatlarından biri olan “Birlik Ulduzları” mükafatına layiq görülmüşdür. 1989-cu ildə Respublika Gənclər Mükafatı laureatı, 2000-ci ildə Azərbaycan Rəssamlar İttifaqının “Soltan Məhəmməd” mükafatı, 2008-ci ildə Mədəniyyət və Turizm Nazirliyinin təsis etdiyi “Zirvə” mükafatı, 2015-ci ildə Avstriyanın I dərəcəli “Cəngavər” ordeni (qızıl), 2018-ci ildə “Şöhrət” ordeni ilə təltif edilib.





MENTOR

# Səlhab Məmmədov

**Xalq rəssamı, professor, Azərbaycan Rəssamlıq Akademiyasının prorektoru**

Səlhab İsa oğlu Məmmədov 1943-cü ildə Azərbaycan Respublikasının Şəki şəhərində anadan olub. 1962-1968-ci illərdə Tbilisi Dövlət Rəssamlıq Akademiyasının Rəngkarlıq fakültəsində təhsil alıb. 1972-ci ildən Azərbaycan Rəssamlar İttifaqının üzvüdür. 1982-1988-ci illərdə Azərbaycan Rəssamlar İttifaqının məsul katibi olub. 1988-ci ildə Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi fəxri adına layiq görülüb. 1993-1999-cu illərdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin dosenti olub. 1993-cü ildən Azərbaycan Rəssamlar İttifaqının katibidir. 2004-cü ildən Azərbaycan Rəssamlıq Akademiyasının Beynəlxalq əlaqələr üzrə prorektoru vəzifəsində çalışır.

2006-cı ildə Azərbaycan Respublikasının Xalq rəssamı fəxri adına layiq görülüb. 2008-ci ildən Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsüdür. 2009-cu ildən etibarən Rusiya Rəssamlıq Akademiyasının akademikidir. 2016-cı ildən Özbəkistan Rəssamlıq Akademiyasının, 2018-ci ildən Tbilisi Rəssamlıq Akademiyasının fəxri professorudur. 2012-ci ildə “Təsviri sənət” sahəsi üzrə 2011-ci ilin ən yaxşı işi nominasiyasında Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təsis etdiyi diplomla mükafatlandırılıb. Həmin ildə Azərbaycan Respublikasının “Şöhrət” ordeni, 2017-ci ildə isə “Şərəf” ordeni ilə təltif edilib. 2023-cü ildə Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu ilə təltif olunub.



MENTOR

# İnqa Şmidt

**Dünya şöhrətli almaniyalı rəssam**

İnqa Şmidt 1952-ci ildə Almaniyanın Vihe şəhərində anadan olub. 1977-ci ildə Leypsiq Universitetində incəsənət tarixi və germanistika üzrə magistr dərəcəsini aldıqdan sonra Halle şəhərindəki Burg Giebichenstein (Burq Gibihenştayn) İncəsənət və Dizayn Universitetində rəssamlıq və qrafika üzrə təhsil alıb və 1983-cü ildə məzun olub. 1984-1988-ci illərdə Berlin İncəsənət Universitetində rəngkarlıq üzrə təhsil alıb. 2012-ci ildə Azərbaycan Rəssamlıq Akademiyasının fəxri doktoru adına layiq görülüb. 1994-cü ildən Azərbaycan Rəssamlıq Akademiyasının, həmçinin Berlin HTK Akademiyasının, Berlin İncəsənət Universitetinin və Potsdam Universitetinin qonaq professoru və mühaziräçisidir.

Dünyanın müxtəlif ölkələrinə, o cümlədən Avrasiya, Cənub-Şərqi Asiya və Latın Amerikasına etdiyi səyahətlərdən ilhamlanan rəssam beynəlxalq aləmdə ekspressiv realizm üslubunda yaratdığı "Başlar" portret seriyası ilə tanınır. Almaniya, ABŞ, Azərbaycan, Polşa, Fransa, İtaliya, Böyük Britaniya və digər ölkələrdə çoxsaylı fərdi və qrup sərgiləri təşkil olunub. Son illərdə Nyu-Yorkda (BMT-nin mənzil-qərargahı, 2016), ABŞ-ın Marfa şəhərində (2015, 2016) və Bakıda (Muzey Mərkəzi, 2013, Heydər Əliyev Mərkəzi, 2025, MAMA "Ana təbiət" sərgisində iştirak) beynəlxalq səviyyəli fərdi sərgiləri keçirilib. Hazırda Berlində yaşayır və fəaliyyətini davam etdirir.

# TƏŞKİLATÇILAR VƏ TƏRƏFDAŞLAR

# Təşkilatçılar

### Qarabağ Dirçəliş Fondu

Qarabağ Dirçəliş Fondu işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması, habelə dayanıqlı iqtisadiyyata və yüksək rifaha malik regiona çevrilməsi istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyinin göstərilməsini və sərmayələrin cəlb edilməsini, bu sahədə dövlət-özəl tərəfdaşlığının inkişaf etdirilməsini, habelə görülən işlərlə bağlı informasiya təminatını, maarifləndirmə və zəruri təşviqat işlərini həyata keçirən publik hüquqi şəxsdir.

### Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi mədəniyyət, incəsənət, tarix və mədəniyyət abidələrinin qorunması, nəşriyyat və kinematoqrafiya sahələrində dövlət siyasətini və tənzimləməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır. Hazırda nazirliyin fəaliyyətində işğaldan azad edilmiş ərazilərdə mədəni irsin bərpası, tarixi abidələrin dirçəldilməsi və regionda mədəni mühitin yenidən qurulması xüsusi strateji əhəmiyyət kəsb edir.

### Azərbaycan Rəssamlıq Akademiyası

Azərbaycan Rəssamlıq Akademiyası 13 iyun 2000-ci il tarixində Ulu Öndər Heydər Əliyevin fərmanı ilə yaradılmış ali təhsil müəssisəsidir. Akademiya təhsilin bütün formaları üzrə rəngkarlıq, heykəltəraşlıq, qrafika, incəsənət tarixi və nəzəriyyəsi, dizayn, memarlıq, dekorativ-tətbiqi sənət ixtisasları üzrə təhsil fəaliyyətini qanunvericiliklə müəyyən edilmiş qaydada lisenziya və akkreditasiya əsasında həyata keçirir.



# Tərəfdaşlar

### PAŞA Kapital İnvestisiya Şirkəti

PAŞA Kapital İnvestisiya Şirkəti 2012-ci ildə təsis edilmiş və fəaliyyətə başladığı gündən kapital bazarlarında fərdi və hüquqi investorlar üçün müştəri-mərkəzli yanaşma əsaslı əlçatan, innovativ və etibarlı investisiya həlləri təqdim edir. PAŞA Maliyyə Holdinqi və PAŞA Holding səhmdarlığı ilə fəaliyyət göstərən şirkət "Qarabağın Rəngləri: Faciədən Zəfərə" layihəsində iştirak edən gənc rəssamların fəaliyyətini stimullaşdırmaq məqsədilə onların hər birinə xüsusi təqaüd ayırıb.

### First News Media

First News Media (1news.az) 2007-ci il martın 12-də fəaliyyətə başlayan, ölkənin və regionun aparıcı xəbər resurslarından biridir. Azərbaycanda və dünyada baş verən siyasi, iqtisadi, sosial və mədəni hadisələri Azərbaycan, rus və ingilis dillərində operativ şəkildə geniş oxucu kütləsinə çatdıran agentlik "Qarabağın Rəngləri: Faciədən Zəfərə" layihəsinin informasiya dəstəkçisidir.